# İnsanları gülümsəyən ölkə

## Avstraliyada təhsil alan Orxan Zakirov deyir ki, burada nağıl qəhrəmanı kostyumu geyinmiş avtobus sürücüsü, turistlərlə selfi çəkdirən polis görmək adi haldır



**"Həyat şəraitinin yüksək olması onların əhval-ruhiyyəsində də özünü göstərir. İnsanların demək olar, hamısı xoşbəxt görünür və gülümsəyirlər. Bu xoş aura zəncirvari reaksiya verir, istər-istəməz sənin də günlük əhvalının yüksək olmasına zəmin yaradır. Nağıl qəhrəmanı kostyumu geyinmiş avtobus sürücüsü, turistlərlə selfi çəkdirən polis, cavanlarla klubda əylənən təqaüdçü görmək bizi təəccübləndirsə də, bura üçün normaldır".**

Bu sözləri bizimlə söhbətində Avstraliyada təhsil alan həmyerlimiz Orxan Zakirov dedi. Müsahibimiz 1991-ci ildə Bakıda anadan olub. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət İqtisad Universitetinin Xüsusi İstedadlar Qrupuna (XİQ) daxil olub. Bakalavr təhsilini bitirdikdən sonra isə Xaricdə Təhsil üzrə Dövlət Proqramı vasitəsilə Avstraliyanın Queensland Universitetində təhsilini davam etdirir.

### UNUDULMAZ TƏLƏBƏ HƏYATI VƏD EDƏN MƏKAN

Orxan deyir ki, xaricdə təhsil almasında XİQ-in rolu böyükdür: " Xüsusi İstedadlar Qrupu fərdi inkişaf baxımından həyatımda mühüm rol oynadı. Bu qrup mən və yoldaşlarım üçün müasir dövrün tələblərinə cavab verən təhsil və karyera pilləkəni rolunu oynadı. İngilis dili və beynəlxalq sertifikatların önəmini, dünyanın qabaqcıl şirkətlərində işləmə və staj keçmə imkanlarını və digər uğurlarımı XİQ-ə, habelə oranın rəhbərliyinə və müəllim kollektivinə borcluyam. Təbii ki, rəqabətli mühit və tələbə yoldaşlarımın verdiyi motivasiya da bura daxildir. Bizdən daha yuxarı pillələrdə təhsil alan tələbələrin çoxu təhsilini davam etdirmək üçün xarici ölkələrin universitetlərinə müraciət edir və qazanırdı. Onların uğurları bizi də həvəsləndirirdi. Bir çox qrup yoldaşlarım kimi, mən də Təhsil Nazirliyinin təqaüd proqramına müraciət etdim və qazandım".

Müsahibimizin sözlərinə görə, Dövlət Proqramının təqaüdünü qazanan tələbələrin əksəriyyətinin Birləşmiş Krallığı seçməsinə baxmayaraq, o, bu ənənəni dəyişib və Avstraliya universitetini seçib: "Birləşmiş Krallıqda təhsil almaq artıq dəb halını alıb və əvvəlki təhsil almış tələbələrin tövsiyələri əsasında yeni tələbələr də oranı seçir. Böyük Britaniyada ingilis dilində təhsil, universitetlərin dünya reytinqində yüksək yerləri tələbələri ora getməyə həvəsləndirir. Halbuki Dövlət Proqramının siyahısında bir çox ölkələr və universitetlər var. Əgər dövlətimiz belə bir imkan yaradıbsa, niyə də keyfiyyətli təhsili ilə bərabər unudulmaz tələbə həyatı vəd edən bir yer seçməyim? Universitetlərin siyahısına baxdıqda, gözlənilmədən ağlıma Avstraliya gəldi, dərhal bu ölkənin universitetlərini araşdırmağa başladım. Cəlbedici məqamlardan biri də o oldu ki, burada magistratura Böyük Britaniyadan fərqli olaraq 2 ildir, bu da adaptasiya və xarici dilin təkmilləşdirilməsi üçün əlavə şans yaradır. Amma etiraf edim ki, gedəcəyim yerin iqlimi və tələbə həyatı da seçimimdə az rol oynamadı".

### BAHALI ÖLKƏ, BAHALI TƏHSİL

Orxan Avstraliya ilə Azərbaycan universitetləri arasındakı təhsil fərqlərindən də danışdı. Müsahibimizin sözlərinə görə, Avstarliya universitetlərinin təhsili ABŞ-la oxşardır: "Avstraliya təhsili dünyada öz sözünü demiş brendə çevrilib və hər il dünyanın 200-dən çox ölkəsindən on minlərlə tələbə burada təhsil almaq üçün öz büdcəsini sərf edir. Təbii ki, ölkələr arasındakı inkişaf fərqi və təhsil təcrübəsi göz qabağındadır, amma əsas məqam odur ki, təkcə Avstraliyada yox, dünyanın bütün qabacıl ölkələrinin təhsil ocaqlarında praktiki təhsilə çox böyük önəm verilir. Laboratoriyalar, emalatxanalar tələbələrə yaradıcılıq məhsullarını reallığa çevirməyə imkan yaradır və yeni innovasiyalara gətirib çıxarır. Etiraf etmək lazımdır ki, Azərbaycanda Sovet dövrünün məhsulu olan teorik təhsil sistemi hələ də dəbdədir və bu, tələbələrin fərdi inkişafına ciddi əngəl törədir. Düzdür, bir çox universitetlər artıq müasir metodların tətbiqinə başlayıblar, amma hələ ki təhsilimizdə nöqsanlar göz qabağındadır. İnanıram ki, mənimlə bir nəsildən olan, pedaqogika sahəsində təhsil alan tələbələrimiz bu fərqləri görüb ölkəmizdə də dəyişikliklər edilməsi üçün birlikdə əlimizdən gələni edəcəyik. Digər nəzərəçarpan fərq özünü müəllim-tələbə münasibətlərində, tələbə müstəqilliyində göstərir. Bununla yanaşı, Avstraliya çox bahalı ölkədir. Burada əməkhaqqı çox yüksək olduğundan, bu, əmtəə və xidmətlərin qiymətlərində də öz əksini göstərir. Orta əməkhaqqı alan avstraliyalıya ucuz görünə bilən əmtəə və xidmət azərbaycanlı tələbə üçün əlçatmaz ola bilər".

Bu baxımdan, müsahibimiz hesab edir ki, Avstraliyada tələbə üçün ən böyük çətinlik xərclərin idarə edilməsidir: "Yeməyi harada yeməyindən, əyləncəyə, nəqliyyata nə qədər xərcləməyindən və qaldığın evin şəraitindən asılı olaraq, aylıq xərclər arasındakı fərq dəhşətli dərəcədə böyük ola bilər. Bir mühüm məqam da odur ki, ümumilikdə bahalığa baxmayaraq, bəzi məhsulların qiyməti Azərbaycanla müqayisədə ucuzdur, bu da qənaət etməyə imkan yaradır. Artıq ikinci ilimi bitirmək üzrəyəm və öz təcrübəmə əsasən deyə bilərəm ki, ilk gəldiyim aylardan 2 dəfə az pul xərcləyirəm. Təhsilə gəldikdə isə, buradakı bir dərsin qiymətinə Azərbaycanda ödənişli əsaslarla magistratura oxumaq mümkündür. Bu baxımdan, Dövlət Proqramının əhəmiyyətini bir daha gənclərin nəzərinə çatdırmaq istərdim".

### TƏLƏBƏNİN YARALI YERİ

Avstraliya bahalı ölkə olduğu üçün Orxan ilk günlər maddi baxımdan uyğunlaşmaqda çətinlik çəkib: "Ən böyük çətinliyim ev məsələsi idi. Universitetin yataqxanaları olmasına baxmayaraq, Böyük Britaniya ilə müqayisədə qat-qat bahadır və hətta təqaüdlə belə onun xərclərini qarşılamaq mümkün deyil. Buna görə də ev axtarmalı olduq. Universitetin yerləşdiyi zona bahalı ərazilərdən biridir və evlərin qiymətləri bəzi hallarda əlçatmaz idi. Qənaət etmək üçün bir az uzaqda ev tutmalı olduq, o da yalnız otaq şəraitində. Çünki bütöv ev kirayə götürmək bahalı və riskli idi. Ev uzaq olduğundan nəqliyyatla bağlı çətinlik çəkirdim, ucuz qiymətə maşın almalı oldum. Avtomobillər Azərbaycanla müqayisədə çox ucuzdur və kiçik məbləğə minimal tələblərə cavab verən avtomobil tapmaq mümkündür. Bundan əlavə, yemək məsələsi də xaricdə yaşayan tələbənin yaralı yerlərindən biridir. Təqaüdə qənaət etmək üçün mütləq evdə özün bişirib yeməyə məcbursan və bu xüsusilə oğlanlar üçün zəhmətli və vaxt aparan işdir. Xaricdəki ərzaqların dadının fərqli olması və bu ərzaqlara uyğunlaşmaq da ilk günlərdə çətin olur".

### MÜSTƏQİL HƏYAT VƏ AZADLIQ

Orxan Azərbaycan gəncləri ilə avstraliyalı gənclər arasındakı fərqlərdən də danışdı. O deyir ki, Avstraliyada gənclər uşaqlıqdan müstəqil həyata atılır: "Avstraliya və Azərbaycan gəncləri arasında yerlə göy qədər fərq var. Bu fərq özünü ilk öncə həyat tərzində göstərir. Onu deməliyəm ki, buranın gəncləri uşaqlıqdan müstəqil həyata atılır, onlara tam səlahiyyət və azadlıq verilir. Bu bir az riskli görünsə də, fərdin formalaşmasında mühüm rol oynayır. Elə buna görə də artıq 15-16 yaşındakı gənclər valideyndən asılı olmadan özləri iş tapıb pullarını qazanmağa, tam azad olmağa başlayırlar. Artıq 18 yaşı tamam olan gənclərin çoxu ayrı evə köçür, bəziləri öz qazancları ilə avtomobil alır. Açığı, ilk dəfə burada 18 yaşdan aşağı yeniyetmələrin işlədiyini görəndə çox təəccübləndim. Amma bunu valideynlərinin təzyiqi ilə yox, öz istəkləri ilə etdiklərini biləndə, bu, mənə daha qəribə gəldi. Avstraliyadakı gənclər ilk baxışda əyləncəyə, tüfeyli həyata üstünlük verən kimi görünsə də, şəxsi inkişaf baxımından azərbaycanlı gənclərdən çox irəlidədirlər. Uşaq vaxtından bağçada və orta məktəbdə musiqi, əmək və idman dərslərinin tətbiqi öz nəticəsini verir - hər bir avstraliyalı ən azı bir musiqi alətində ifa edə və ya dülgər sənətinə yiyələnə bilir. Bunlar olmasa belə, hər hansı idman növündə ixtisaslaşırlar".

### İNSANLARIN HAMISI GÜLÜMSƏYİR

Həmsöhbətimiz deyir ki, Avstraliyada orta statistik bir azərbaycanlını təəccübləndirən məqamlar çoxdur: "Bu barədə çox danışmaq olar. Qısaca onu deyə bilərəm ki, Hollivud filmlərində gördüyümüz o xoşbəxt səhnələrin real həyatdan götürüldüyünün bariz şahidi oldum. Ən yaddaqalan məqamlara gəldikdə, burada qadın-kişi bərabərliyini xüsusilə qeyd etmək istəyirəm. Avtobus sürücülərinin, yol patrullarının, tikintidə işləyənlərin arasında bu qədər qadın görmək istər-istəməz insanı heyrətləndirir. Digər bir məqam bu ölkədə fiziki məhdudiyyətli insanların cəmiyyətə inteqrasiyasına olduqca önəm verilməsidir. Görmə məhdudiyyətli insanlar üçün morze əlifbası ilə məlumatların qeyd edilməsi, arabalar üçün yolların düzgün qurulması, infrastruktur qurulduqda məhdudiyyətli insanların nəzərə alınması insanı təəccübləndirməyə bilməz".

Orxan deyir ki, Avstraliyadakı insanların hamısı xoşbəxt görünür: "Avstraliya dünyanın ən yüksək həyat standartlarına malik ölkələrindən biridir. Həyat şəraitinin yüksək olması insanların əhval-ruhiyyəsində də özünü göstərir. İnsanların demək olar ki, hamısı xoşbəxt görünür, tanımadığı adama gülümsəyirlər. Bu xoş aura zəncirvari reaksiya verir, istər-istəməz sənin də gündəlik əhvalının yüksək olmasına zəmin yaradır. Dövlət sektorunda, ictimai iaşə obyektlərində işləyən insanlar belə, ən kiçik məqamlarda qarşısındakı tanımadıqları insanları əyləndirməyə çalışırlar. Nağıl qəhrəmanı kostyumu geyinmiş avtobus sürücüsü, turistlərlə selfi çəkdirən polis, cavanlarla klubda əylənən təqaüdçü görmək sizi təəccübləndirsə də, bura üçün normaldır".

Müsahibimiz sonda vurğuladı ki, Avstraliyada keçirdiyi ay, həftə, gün unudulmaz təəssüratlarla yadda qalır: "Bura gələndən bir çox arzusunda olduğum planlarımı gerçəkləşdirməyə imkan qazandım, yeni yerlər, yeni dadlar, yeni dostlar kəşf etdim, azad həyatın nə olduğunu öyrəndim, bəzən çox sevindim, bəzən darıxdım. Nə vaxtsa buranı tərk etsəm belə, istənilən halda burada baş verənlər gələcəkdə ömür boyu unutmayacağım gözəl xatirə olaraq qalacaq".



**Aygün ƏZİZ**